# Azərbaycan Xalq Parlamenti

**e-mail:** info@azxp.org **Web:** www.azxp.org

**İsrailin İrana təcavüzü haqqında**

**BƏYANAT**

Uzun illər boyu İranla İsrail arasında davam edən və mütəmadi olaraq proksi-hücumlarla müşayiət olunan qarşıdurmanın açıq müharibə müstəvisinə keçməsi həm qlobal təhlükələr, həm də regionumuza və ölkəmizə ciddi təhdidlər yaradır.

Bir ölkənin beynəlxalq hüquqa və qanunlara zidd olaraq başqa bir ölkəyə qarşı hərbi əməliyyatlar həyata keçirməsi təkcə bu ölkələrin deyil, onların yerləşdiyi bölgənin digər dövlətlərinə də təsir edir. Bu mənada baş verənlər Azərbaycan Respublikası üçün qorxulu çağırışlar və təhdidlər törədir, ölkəmizi ciddi humanitar və hərbi-siyasi böhranla üz-üzə qoyur.

İsrailin İrana təcavüzü ölkəmizdəki daxili siyasi vəziyyətə də əsaslı təsir edir, Azərbaycan cəmiyyətində dərin parçalanmaya və qütbləşməyə zəmin yaradır.

Bunları nəzərə alaraq, Azərbaycan Xalq Parlamenti aşağıdakıları xalqımızın və dünya ictimaiyyətinin nəzərinə çatdırmağı zəruri hesab edir:

1. İstənilən bir ölkənin digərinə, indiki halda İsrailin İrana qarşı əsassız və müharibə elan etmədən hücum etməsi BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndinin açıq şəkildə pozulması, təcavüz kimi qiymətləndirilməli, həmçinin qətiyyətlə pislənməlidir;
2. Azərbaycan Xalq Parlamenti beynəlxalq təşkilatları, bütün dövlətləri və dünya ictimaiyyətini çoxsaylı insan tələfatı ilə davam edən bu dağıdıcı müharibənin dayandırılması istiqamətində səfərbər olmağa çağırır;
3. Azərbaycan Xalq Parlamenti həmvətənlərimizi Azərbaycan xalqı və ölkəmiz üçün yaranmış bu riskli dönəmdə ayıq olmağa, vəziyyəti həm obyektiv, həm də düzgün qiymətləndirməyə, baş verənlərə Azərbaycanın və xalqımızın maraqları mövqeyindən yanaşmağa çağırır.
4. Azərbaycan Xalq Parlamenti Azərbaycan hökumətindən tələb edir ki, İsrailin İrana qarşı təcavüzü fonunda xarici dövlətlərin vətəndaşları üçün tətbiq olunan sərhəd rejimi yumşaldılmasını öz vətəndaşlarına da şamil etsin və dövlət sərhədlərini bütün Azərbaycan vətəndaşları üçün açıq elan etsin.
5. Azərbaycan Xalq Parlamenti Azərbaycan hakimiyyətinə yaranmış kritik vəziyyətə dair ölkənin münasibətini və siyasətini "Şuşa Bəyannaməsi"nin

tələblərinə uyğun olaraq, müttəfiq Türkiyə Cümhuriyyəti ilə birgə həyata keçirməyi tövsiyə edir.

**Azərbaycan Xalq Parlamentinin sədri: Namizəd Səfərov**

**21.06.2025**